# ÖN SÖZ

Tarix Azərbaycan xalqına elə bir tale qismət etmişdir ki, onun elm, texnika və mədəniyyətinin inkişafı həmişə böyük çətinliklərlə üzləşmişdir. Bu xalqın yaşadığı coğrafi mövqe bir tərəfdən onu dünya sivilizasiyasına nə qədər yaxınlaşdırmışdırsa, bir o qədər də böyük siyasi çətinliklərlə üzbəüz qoymuşdur. Keçən tarixə hətta səthi bir ekskurs göstərir ki, bu xalqın dünya elm və mədəniyyətinə verdiyi böyük korifeylər siyahısı daha da geniş ola bilərdi. Amma ardı – arası kəsilməyən müharibələr, yadelli işğalçılara qarşı müqavimətlər bu xalqın öz siyasi, elmi, texniki və mədəni inkişaf harmoniyasını dəyişdirmişdir. XIX əsrin ikinci yarısından sonrakı neft dövrü Azərbaycan xalqına bir tərəfdən rahat həyat və firavanlıq gətirə bildisə də, digər tərəfdən onu yeni mübarizələr meydanına atdı. Əgər XIX əsrdə başlayan və bu gün özünün apogey dövrünü yaşayan erməni epidemiyasını da əlavə etsək, onda yəqin ki, bu xalqın halına ancaq acımaq olar. Lakin XX əsrin əvvəllərindən onun elmi, texniki və mədəni həyatında yeni inkişaf dövrü başlanmışdır. Bu dövrün inkişafı öz xüsusiyyətləri ilə 1970- ilə qədər davam etmişdir. 1970 - ci ildən Azərbaycan xalqının həyatında yeni intibah dövrü başlanmışdır. Elm, texnika və mədəniyyət sahələrində bu dövr tarixdə "qızıl dövr" adlanır. Bu dövrdə başlanan inkişaf bütün sahələri əhatə edir.

Azərbaycanda riyaziyyat və mexanika elminin də XX əsrin əvvəlində başlanan inkişaf səviyyəsi 1970 – ci ildən yeni keyfiyyət dövrünə qədəm qoydu. Məhz bu illərdə riyaziyyat və mexanikada inkişaf kütləvilik, daha dəqiq desək, məqsədəuyğunluq və ardıcıllıq xüsusiyyəti ilə səciyyələnirdi. Elmin inkişafındakı strateji sahələrə rəhbərlik o vaxt respublikaya başçılıq edən indiki hörmətli Prezidentimiz Heydər Əlirza oğlu Əliyev tərəfindən aparılırdı. Riyaziyyat və mexanika kimi həyativacib sahələrə onun atalıq qayğısı olduğunu demək bəlkə də az olardı. O vaxtkı hərbi-kosmos dövrünün inkişafına bağlı olan dəqiq elmlərin inkişafı hörmətli Prezidentimizi həmişə narahat etmişdir. 70-ci illərdən başlayaraq keçmiş SSRİ –nin məşhur təhsil ocaqlarına yüzlərlə tələbə göndərilirdi.

Riyaziyyat və mexanika kimi fundamental elmlərdə tədqiqatların koordinasiyasını möhtərəm Prezidentimiz H.Ə.Əliyev Azərbaycan Elmlər Akademiyasının Riyaziyyat və Mexanika institutuna həvalə etmişdir.

Azərbaycan Elmlər Akademiyasının Riyaziyyat və Mexanika institutunda 10-13 mart 1998 - ci ildə keçirilən Azərbaycan Respublikasının Prezidenti

H.Ə.Əliyev cənablarının 75-illik yubileyinə həsr olunan riyaziyyat və mexanika üzrə IV Respublika konfransı bu sahələrdə əldə edilmiş görkəmli nailiyyətlərin özünəməxsus hesabatı oldu.

Konfransda respublikanın riyaziyyat və mexanika üzrə bütün elmi mərkəzlərini təmsil edən görkəmli alimlərin 40-a yaxın məruzələri dinlənilmişdir.

Bu konfrans əyani olaraq göstərdi ki, riyaziyyat və mexanikanın bir çox sahələrində bizim alimlər tərəfindən alınmış nəticələr dünya səviyyəsindədir.

**Azərbaycan Elmlər Akademiyasının**
**Prezidenti F.Q. Maqsudov**